Gender Bərabərliyi və Qadın Təşəbbüsləri İctimai Birliyi

Rüblük Bülleten (1) № 1

İyul, Avqust, Sentyabr 2009

MÜNDƏRİCAT

Ön Söz.....3

Zorakılıq nədir?.....4

Ailədə Zorakılıq.....5

Zorakılığı şərtləndirən sosial amillər.....7

Məişət Zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının

Qanunu.....8

Məişət Zorakılığı ilə bağlı ölkə üzrə son xəbərlər….....17

Beynəlxalq təcrübə.....25

Ön söz

Əziz oxucu!
Təşkilatımızın rüblük bülleteninin ilk nömrəsini diqqətinizə çatdırmaqda məmnunluq duyuruq. Bu bülletenin nəşri barədə qərar təşkilatımızın 2008-2009-cu illərdə Neftçala, Kürdəmir və Lənkəran rayonlarda qadınlar üçün keçirdiyi "İctimai Aktiv Liderlik" təlimi və təlimdən sonra təlim iştirakçılarının təşəbbüsü ilə keçirilmiş konfranslar zamanı yaranmış təkliflərdən doğmuşdur. Belə ki, bu təlim və təlim sonrası konfrans zamanı qadınlar gender və qadın haqları sahəsində məlumatsız olduğunu və bu sahədə daha çox məlumat əldə etmək istədiklərini və ekspertlərlə görüşlərin təşkilində maraqlı olduqlarını bildirdilər. Bu boşluğun doldurulmasına töhfəmizi vermək üçün rayonlarda qadınlarla ekspert görüşləri keçirməklə yanaşı, həm də müxtəlif mövzuları əhatə etməklə rüblük bülleten nəşr etmək qərarına gəldik.

Məişət zorakılığı barədə maarifləndirmə işinə ehtiyac olduğunu nəzərə alaraq bülletenimizin ilk nömrəsini məhz məişət zorakılığına həsr etdik. Bülletendə məişət zorakılığı nədir, onu törədən amillər və s. kimi mühüm suallara cavab tapa bilərsiniz. Burada həm də hazırda Milli Məclisin müzakirəsinə buraxılmış "Məişət Zorakılığının qarşısının alınması" haqqında Azərbaycan Respublikasının qanun layihəsini də oxuya bilərsiniz.

Onu da qeyd etməliyik ki, məişət zorakılığı ilə bağlı Gender Bərabərliyi və Qadın Təşəbbüsləri İB (GBQT İB)də müəyyən işlər görmüşdür. Buna misal olaraq GBQT İB-nin Amerikada yerləşən "İnsan Hüquqları üzrə Vəkillər" təşkilatı ilə birgə mövcud qanun layinəsinin təhlil olunması və tövsiyələrin hazırlanıb Milli Məclisə və aidiyyatı orqanların diqqətinə çatdırmasını göstərmək olar. Bundan başqa mövzu ilə bağlı müvafiq dövlət qurumlarının, vətəndaş cəmiyyəti nümayəndələrinin və beynəlxalq təşkilatların iştirakı ilə dəyirmi masa keçirərək məsələnin ictimaiyyətin diqqətinə çatdırılması olmuşdur.

Beləliklə təşkilatımızın rüblük bülleteninin ilk nömrəsini diqqətinizə çatdırırıq.

Hörmətlə,

Ülviyyə Məmmədova
İcraçı Direktor
GBQT İB

Bizimlə əlaqə:
Tel: 497-6568;
E-mail: office@gewi-az.org

Zorakılıq Nədir?

Qadına qarşı zorakılıq hər zaman mövcud olmuşdur. Müasir dövrdə də bu problem bütün dünya ölkələrində qalmaqdadır. Zorakılığın ən müxtəlif təzahürləri müasir cəmiyyətin mərkəzi problemidir. Onun qurbanları isə ən çox qadınlar olurlar.

Qadınlara qarşı zorakılıq qlobal epidemiyadır". Avropa Şurasının hesablamalarına görə ailə zorakılığı 16-44 yaş həddində qadınlar arasında ölümün və şikəst olmanın əsas səbəblərindən biridir. Zorakılığa məruz qalma hallarında ölümün və ya sağlamlığın itirilməsi faizi hətta xərçəng xəstəliyini belə geridə qoyur.

Lakin dünyanın bir çox ölkələrindən fərqli olaraq, Azərbaycanda qadınlar hərbi münaqişə və ölkə ərazilərinin işğalı nəticəsində yaranmış zorakılıqla da üzləşməli olublar. Belə ki, Azərbaycan Respublikasının Dağlıq Qarabağ və ətraf regionlarındakı hərbi münaqişə nəticəsində ölkə əhalisinin böyük bir hissəsi, o cümlədən yüz minlərlə qadın zorakılığın qurbanı olub, öz ev-eşiklərini tərk edib bir anda qaçqın və məcburi köçkünlərə çevriliblər. Azərbaycan vətəndaşları bu münaqişə nəticəsində əsir alınmaq, doğma yurd-yuvasından qovulmaq, normal həyat tərzindən məhrum edilmək kimi zorakılıqlarla-insan hüquqlarının kobud pozuntuları ilə üzləşiblər. Bundan əlavə, Qarabağ müharibəsi zamanı yaralanan 100,000, əlil olan 50,000 insanın mühüm bir hissəsini də qadınların təşkil etməsi müharibənin Azərbaycan qadınına gətirdiyi dəhşətlərin bariz nümunəsidir.

Qaçqın və məcburi köçkün qadınlar çox güclü mənəvi sarsıntılara məruz qalıblar. Ekspertlərin fikrincə, bu gün onlarda müşahidə olunan ruhi pozuntular ilk növbədə, həmin sarsıntıların nəticəsidir. Bu insanlar 900 yaşayış məntəqəsinin, 130,000 evin, 1,025 təhsil, mədəniyyət və səhiyyə obyektlərinin necə dağıdıldığının şahidi olublar, illər boyu topladıqları maddi sərvətlər bir anda yox olub və ən yaxın adamlarını itiriblər. Yüzlərlə qadın və uşaq əsir alınıb. Cari araşdırmanın nəticələri göstərir ki, qaçqın qadınların 73%, məcburi köçkün qadınların isə 83,67%-i hesab edir ki, müharibə onların səhhətinə mənfi təsir göstərib. Yenə qaçqın qadınların 93,33%, məcburi köçkün qadınların isə 100%-i deyir ki, Qarabağ münaqişəsi onlarda ciddi mənəvi sarsıntıya səbəb olub və onun psixoloji təzyiqi bu gün də davam edir. Bir kədərli faktı da qeyd etmək lazımdır ki, Azərbaycan qadınları II Dünya müharibəsindən sonra Avropada amansız etnik təmizlənməyə məruz qalan qadınlardan biri, keçmiş SSRİ-də isə ilk qadınlardan olublar.

Bu kontekstdə qaçqın və məcburi köçkün qadınların məruz qaldıqları fiziki, sosial və psixoloji zorakılıqdan danışmaq olar. Gündəlik yaşayış mühitindən, işindən və sosial mövqeyindən məhrum olan qadınlar daim psixoloji təzyiq altında yaşayırlar. Bu təzyiqi hətta hərtərəfli ümummilli yardım proqramları ilə də tamamilə aradan qaldırmaq mümkün deyil. Bir tərəfdən, gələcək perspektivi qeyri-müəyyən olan qaçqın və məcburi köçkün statusu qadınların vəziyyətində müəyyən asılılıq yaradır. Digər tərəfdən isə, bu qadınlar, adətən, bir sıra səbəblərə görə sosial və mənəvi ayrı-seçkiliyin müxtəlif formalarına məruz qalırlar. Dağlıq Qarabağ və ətraf regionlarındakı hərbi münaqişə təkcə qaçqın və məcburi köçkünlərin deyil, bütün Azərbaycan xalqının psixoloji vəziyyətinə və fiziki sağlamlığına mənfi təsir göstərib. Kiçik bir ölkə üçün 20.000 ölü və 4.866 əsir böyük itkidir və yeri heç nə ilə doldurulmayacaq bu tələfat aralarında ailə üzvləri və qohumları da məhv olan qadınlara təsir etməyə bilməz.

Ailədə Zorakılıq

Zorakılığının ən geniş yayılmış formalarından biri də ailədə qadınlara qarşı zorakılıqdır. Bu zorakılıq növü coğrafi və ya yaş hüdudları, yaxud hər hansı bir sosial qrupa mənsubiyyəti olmayan haldır. Bu, get gedə yüksələn templə qorxutmaq və ya daima qorxu altında saxlamaq yolu ilə fiziki, mənəvi, iqtisadi formalarda təhqiretmənin ən yüksək mərhələsidir. Qadın hüquqlarının tapdalanması, onun ətraf aləmdən təcrid olmasına, ona cəmiyyətin bərabər hüquqlu üzvü kimi deyil, bütün haqları ailə başçısına aid olan bir varlıq kimi yanaşma hallarına bu gün də rast gəlinir. Bu isə inkişaf etmiş cəmiyyətdə, sivil düşüncəli insanlarda, ziyalılarda təəssüf doğurmaya bilməz. Çünki cəmiyyətin inkişafında qadının rolu danılmazdır. Qadın anadır, yeni nəslin yetişdirilməsində haqqı ödənilməz müqəddəs bir varlıqdır. Nəhayət, qadın cəmiyyətin tamhüquqlu bir üzvüdür. Ailədə zorakılıq müxtəlif təzahür formaları olan mürəkkəb hadisədir. Ailənin istənilən üzvü ailədə zorakılığın qurbanına çevrilə bilər, lakin, əsasən, qadınlar zorakılığa daha çox məruz qalırlar. Adətən, qadınlar, zorakılığın qurbanı olsalar da, onlar özləri də uşaqlarına, habelə ailənin nisbətən digər zəif üzvlərinə fiziki cəza tətbiq edirlər. Bunlar patriarxal münasibətlərə görə baş verir və bəzən qadın, uşaq və ya nadir hallarda kişi olmasından asılı olmayaraq, tabe olan şəxsin fiziki baxımdan nəzarət altında formasına gətirib çıxara bilər. Məişət zorakılığı əsasən aşağıda qeyd olunan kateqoriyalara aid, birgə yaşayan, qohumluq münasibətlərində olan şəxslər arasında baş verir:

- *ər-arvad arasında*
- *nikah pozulduqdan sonra birgə yaşayan keçmiş ər-arvad arasında*
- *nikah bağlamadan faktiki ailə qurmuş kişi və qadın arasında*

Zorakılığa məruz qalmış şəxs ailədaxili zorakılıq faktının yeganə qurbanı deyil. Zorakılıq həmçinin uşaqlara, baba və nənə, qardaş və bacılara, digər ailə üzvlərinə, habelə ailədə və bütövlükdə cəmiyyətin özündə ümumi mühitə mənfi təsir göstərən haldır. Bir çox hallarda məişət zorakılığının qurbanı olan şəxslər baş verənlər barədə susur və daxili sarsıntı keçirirlər. Qorxu və utanc səbəbindən onlar vəziyyətlə bağlı təəssüratlarını heç kimlə bölüşmür, daim qorxu altında yaşayır və öz şəxsi fikirlərini söyləməyi bacarmırlar. Onlar bununla belə yeni zorakılıq burulğanına səbəb olmaqdan ehtiyyat edirlər. Lakin zorakılığı törədən şəxslər öz əməllərinə görə məsuliyyət daşmayaraq cəzasız qalırsa onlar daha da azğınlaşır, yenidən həmin hərəkətləri törədərək digər şəxslərin həyatını daimi dəhşətə çevirirlər.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində ailədə, qohumluq dərəcəsindən asılı olmayaraq, istənilən şəxs tərəfindən törədilmiş cinayətlər üçün məsuliyyət müəyyən edən maddələr mövcuddur.[1] Lakin həyat yoldaşı tərəfindən zorakılığa məruz qalma halları xüsusi qeyd olunmur.

---

[1] Qanunvericilikdə ailədə zorakılıqla bağlı xüsusi bir müddəa olmasa da, Azərbaycanın 2000-ci ildən qüvvədə olan Cinayət Məcəlləsində zor tətbiq etmə və ya sistemli döymə yolu ilə fiziki və ya psixoloji əziyyət vermələri cəzalandıran maddə vardır (Maddə 133). 126, 127 və 128-ci Maddələrdə sağlamlığın pozulması və əlilliklə nəticələnən qəsdən fiziki xəsarət yetirilməsinin müxtəlif dərəcələrindən bəhs olunur. 125-ci Maddədə nəzərdə

Digər bir çox ölkələrdə olduğu kimi,[2] Azərbaycanda da ailədə zorakılıq hallarının dəqiq sayını bilmək çox çətindir, çünki bu hallar yalnız zorakılığa məruz qalan şəxslər və ya zorakılıq hadisəsinin şahidləri tərəfindən məlumat verildikdə aşkar olunur. Müəyyən sosial və psixoloji səbəblərə görə bir çox hallarda ailədə zorakılıqla bağlı şikayətlər edilmir. Zərərçəkən şəxslər yalnız ciddi nəticələr olduqda, hüquq-mühafizə orqanlarına müraciət edirlər. Bura orqanizmə dəymiş əzabverici zərər, yaxud ölüm halları daxildir. Təhdid və fiziki zorakılıq, qorxutma və hədələmə (sistemli şəkildə törədilsə də), məcburi cinsi əlaqə, iqtisadi sıxıntı və zorakılığın digər "gizli" növləri, "evdən kənara çıxmır" və ictimaiyyətdən "gizlədilir".

Zorakılığın təbiətini və mahiyyətini daha yaxşı başa düşmək üçün onu doğuran səbəbləri təhlil etmək lazımdır. Heç şübhəsiz ki, zorakılıq cəmiyyətdə kök salmış və ailədə daha qabarıq şəkildə təzahür edən sosial hökmranlıq strukturlarının üzərində dayanır. İnsanları təcavüzkar üsullara əl atmağa hazır vəziyyətə gətirən sosial və psixoloji amilləri nəzərə almadan, zorakılığın formalaşma zəminini və mexanizmini müfəssəl başa düşmək qeyri-mümkündür.

Bununla belə, həmçinin, qeyd etmək lazımdır ki, ailədə zorakılıq bir sıra hallarda həm kişilər, həm də qadınlar tərəfindən "qanuni" hesab olunur. Belə qənaətə gəlmək olar ki, ailədə zorakılıq hallarının genişlənməsində kişilərin işsizlyi ən mühüm amillərdən biridir. Qadınlar öz işlərini itirmiş həyat yoldaşlarının qurbanlarına çevrilirlər, çünki kişilər ailə başçısı statuslarının təhlükə altında olmasından irəli gələn sıxıntı və narahatlıq keçirirlər.

Məişət zorakılığını anlamaq və onun barəsində danışmaq bəzən çox çətin olur. Ola bilsin, sizin ətrafınızda bəzi insanlar bu cür zorakı münasibətləri ailə münasibətlərinin adi tərkib hissəsi kimi qəbul edirlər və düşünürlər ki, bu barədə danışmağa belə dəyməz. Lakin daim zorakılığa məruz qalmaq qorxusu və faktiki zorakılıq içində həyat zəif və həssas ailə üzvlərinin fiziki və psixoloji sağlamlığı üçün qarşısıalınmaz mənfi nəticələrə gətirə bilər.

Aşağıdakı məqamları nəzərinizdə saxlayın və öz ətrafınızdakıların zorakılıqla üzləşməsinə yol verməyin:

- *Heç kəs döyülə, təhqir edilə və zorakı münasibətlər şəraitində yaşaya bilməz;*
- *Zorakı münasibətlərə heç bir halda bəraət yoxdur: narkotik/alkoqol asılılığı, işsizlik, maddi çətinliklər, ağır iş yorğunluğu və ya yoldaşınızın əsəbi vəziyyətdə olması sizə qarşı zorakı münasibətdə olmaq üçün əsas vermir.*
- *Zorakı münasibətlər özü-özünə bitmir və əgər qarşısı alınmazsa, artaraq təkrarlanacaqdır;*
- *Zorakılıq səhnələrinin şahidi olan uşaqlarınızın da mənəvi travmalardan müdafiə olunmağa ehtiyacı ola bilər*
- *Hər kəs sağlam və təhlükəsiz ailə münasibətlərinə layiqdir. İnsanlar nəzarət və qorxu mühitində yaşamalı deyil.*

---

tutulur ki, ailə üzvünün intiharına və ya intihara cəhdinə gətirib çıxaran hədələr, qəddar rəftar və ya sistemli alçaltma halları üç ildən yeddi ilə qədər həbslə cezalandırıla bilər.

[2] Gelles, R., «How evaluation research can help reform and improve the child welfare system», *in Program Evaluation and Family Violence Research*, S.K.Ward, D.Finkelhore (eds.), Haworth Press, New York, 2004.

ZORAKILIĞI ŞƏRTLƏNDİRƏN SOSİAL AMİLLƏR

Təhsil səviyyəsi ilə ailədə zorakılıq arasında qarşılıqlı əlaqə heç də birmənalı deyil. Tədqiqat göstərir ki, təhsil səviyyəsi aşağı olan kişilər ailədə zorakılığa daha az meyl göstərirlər. Bəlkə də bu, onunla əlaqədardır ki, belə insanlar adətən, az maaşlı işlərdə çalışdıqlarından, özlərindən razı olmurlar, tələbləri elə də yüksək olmur, bu da, müəyyən hallarda, onların ailə münasibətlərində daha az təcavüzkar olmalarına gətirib çıxarır. Fiziki zorakılığa ən az məruz qalan qadınlar ali və natamam ali təhsillilər, eləcə də, həyat yoldaşı özündən daha təhsilli olanlardır. Lakin qeyd etmək lazımdır ki, ailədə zorakılıq ər-arvadın öz təhsillərindən daha çox, onların təhsil səviyyələri arasındakı fərqlə əlaqədardır.

Ailədə zorakılıq hallarının sayı kişilərin təhsil səviyyəsinin yüksəlməsi ilə əhəmiyyətli dərəcədə dayişir. Daha yüksək təhsilli kişilərə (16,3%) nisbətən orta təhsilli kişilər zorakılığa daha çox meyllidirlər (25,1%).

Bakalavr dərəcəsi olan qadınların 64,3%-i, səbəbi nə olursa olsun, ailədə zorakılığı bəyənmir. Lakin ibtidai və orta təhsilli qadınlar zorakılığa daha dözümlü yanaşmağa meyl göstərirlər (müvafiq olaraq 55,2% və 33,4%). Belə nəticəyə gəlmək olar ki, təhsil səviyyəsinin artması ailədə zorakılığın aradan qaldırılmasında və bərabərlik dəyərlərinin aşılanmasında mühüm rol oynayır.

Kənddə yaşayan qadınlar ən çox 21-30 yaşları arasında zorakılıqdan əziyyət çəkirlər (24,14%), 31-40 yaşlılar arasında isə zorakılıq nisbəti 16,1%-ə düşür. Nikahda olanlar arasında ən müdafiəsiz qrup 21-30 yaşlılardır. Onların, ehtimal ki, uşağı olmur, iqtisadi vəziyyətləri nisbətən zəif olur və onlar bütün ailə tərəfindən güclü patriarxal nəzarət altında olurlar. Şəhərdə yaşayan qadınlar arasında ən çox zorakılığa məruz qalanlar 41-50 yaş arası, ən az zorakılığa məruz qalanlar isə 21-30 yaş arası təsadüf edilir. Əksinə, şəhər yerlərində bu yaş qrupu zorakılığa dözməyə meylli olmurlar.

“Məişət Zorakılığının Qarşısının Alınması Haqqında”
Azərbaycan Respublikasının Qanunu

Bu Qanun yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşamaqlarından sui-istifadə etməklə törədilən zorakılığın, ondan doğuran mənfi hüquqi, tibbi və sosial nəticələrin qarşısının alınması, beynəlxalq standartlara uyğun olaraq məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial müdafiəsi, hüquqi yardımla təmin edilməsi, habelə məişət zorakılığına səbəb olan halların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirləri müəyyən edir və tənzimləyir.

I FƏSİL. ÜMUMİ MÜDDƏALAR

Maddə 1. Əsas anlayışlar

1.1. Bu Qanunda aşağıdakı anlayışlardan istifadə edilir:
1.1.1. məişət zorakılığı – yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşamaqlarından sui-istifadə etməklə, bir ailə üzvünün digər ailə üzvünə (həmçinin yaxın qohumun yanında yaşadığı halda bir yaxın qohumun digər yaxın qohuma, eləcə də qeyri-rəsmi nikahda yaşayan şəxslərin bir-birinə və ya onlarla birgə yaşayan bir-birinin yaxın qohumlarına) qarşı qəsdən, fiziki, seksual zorakılıq və ya psixiki təzyiq göstərməklə, yaxud, nikaha daxil olmağa məcbur etməsi, cinsi toxunulmazlığının və cinsi azadlığının pozulması, məcburi əməyə cəlb edilməsi, eləcə də qanunsuz olaraq iqtisadi xarakterli məhdudiyyətlərin tətbiq edilməsi nəticəsində şəxsin birbaşa və dolayısı ilə hüquq və azadlıqlarının pozması, ona fiziki və mənəvi zərərin vurulması ilə nəticələnən qəsdən edilən hərəkət və ya hərəkətsizlikdir;
1.1.2. məişət zorakılığından zərər çəkmiş şəxs (bundan sonra - zərər çəkmiş şəxs adlandırılmalıdır) - bir yerdə yaşadığı ailə üzvünün, yaxın qohumun, eləcə də qeyri-rəsmi nikahda yaşayan şəxsin və ya bir şəxsin qeyri-rəsmi nikahda olduğu digər şəxsin, əvvəllər birgə yaşamaqlarından sui-istifadə etməklə birgə yaşadığı şəxslərə qarşı qəsdən törədilmiş hərəkətlər nəticəsində fiziki, seksual, psixi təzyiqlərdən və ya iqtisadi məhdudiyyətlərdən zərər çəkmiş şəxsdir;
1.1.3. məişət zəminində fiziki zorakılıq - bu Qanunun şamil edildiyi şəxslərin bir-birinə qarşı qəsdən fiziki təzyiq göstərilməsi, yəni zor tətbiq etməklə şəxsin toxunulmazlığının pozulması, döyülməsi, sağlamlığına zərər vurulması, xəsarət yetirilməsi, işgəncə verilməsi, azadlıq hüququnun məhdudlandırılmasıdır;
1.1.4. məişət zəminində psixiki zorakılıq - bu Qanunun şamil edildiyi şəxslərin bir-birinə qarşı qəsdən psixiki təzyiq göstərməsi, yəni təhqir etməsi, şərəf və ləyaqətinin alçaldılması, fiziki zor tətbiq etmədən amansız rəftar etməkdə dözülməz psixiki şəraitin yaradılması, abort etməyə məcbur edilməsi, hədə-qorxu gəlməsi, təbii ehtiyacların ödənilməsinin məhdudlaşdırılması, qidadan, yuxudan məhrum edilməsi, vicdan azadlığının məhdudlaşdırılması, şəxsin təhsil almasına, sərbəst nikaha daxil olmasına maneçilik törədilməsi, nikah yaşına çatmamış şəxsin nikaha daxil olmağa məcbur edilməsi, habelə dözülməz psixiki şəraitin yaradılmasına yönəlmiş digər hərəkətlərdir;
1.1.5. məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiq edilməsi - bu Qanunun şamil edildiyi şəxslərin bir-birinə qarşı mülkiyyətində olan, sərəncam verməsinə və ya istifadə edilməsinə hüququ olan əmlakdan, gəlirlərdən məhrum edilməsinə, şəxsin iqtisadi cəhətdən asılılığının yaradılmasına, belə asılılığın saxlanmasına və ondan sui-istifadə edilməsinə yönəlmiş hərəkətlərdir;
1.1.6. məişət zəminində seksual zorakılıq - bu Qanunun şamil edildiyi şəxslərin bir-birinə qarşı fiziki və psixiki zor tətbiq etməklə və ya fiziki zor tətbiq edilməsi ilə hədələməklə, eləcə də şəxsin asılılığından və ya köməksiz vəziyyətindən sui-istifadə etməklə onun cinsi

toxunulmazlığının və cinsi azadlığının pozulması, hər hansı üsulla seksual xarakterli hərəkətlərə məcbur edilməsi;
1.1.7. məişət zorakılığın qarşısının alınması - məişət zorakılığı təhlükəsinin aradan qaldırılması məqsədilə həyata keçirilən hüquqi, sosial və xəbərdaredici xarakterli tədbirlərdir;
1.1.8. yardım mərkəzləri - məişət zorakılığından zərər çəkmiş şəxslərə hüquqi, tibbi, psixi, sosial və digər yardımın göstərilməsi məqsədi ilə yaradılan dövlət və qeyri-dövlət qurumlardır;
1.1.9. mühafizə orderi – məişət zorakılığı törətmiş şəxsin zərərçəkmiş şəxsə qarşı edə biləcəyi hərəkətlərə müvafiq icra hakimiyyəti orqanı tərəfindən tətbiq olunan məhdudiyyətlər haqqında akt.

Maddə 2. Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının qanunvericiliyi

Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və digər normativ hüquqi aktlarından ibarətdir.

Maddə 3. Məişət zorakılığının qarşısının alınması sahəsində əsas prinsiplər

3.1. Məişət zorakılığının qarşısının alınmasının əsas prinsipləri aşağıdakılardan ibarətdir:
3.1.1. hər kəsin Azərbaycan Respublikasının Konstitusiyasında və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş əsas insan hüquqlarının və azadlıqlarının təmin edilməsi;
3.1.3. qanunvericiliklə müəyyən edilmiş hallar və hüdudlar istisna olmaqla hər kəsin şəxsi və ailə həyatına müdaxilənin yolverilməzliyi;
3.1.4. şəxsi və ailə həyatı sirrinin qorunması məqsədi ilə konfidensiallığa riayət edilməsi;
3.1.5. məişət zorakılığından zərər çəkmiş şəxslərin pozulmuş hüquqlarının bərpa edilməsi;
3.1.6. məişət zorakılığının qarşısının alınması sahəsində dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının qarşılıqlı əməkdaşlığı.

Maddə 4. Qanunun şamil edildiyi subyektlər

4.1. Bu Qanun aşağıdakı şəxslərə şamil edilir:
4.1.1. yaxın qohum olan ailə üzvlərinə (ər, arvad, valideynlər, uşaqlar, nənələr, babalar, nəvələr, doğma və ögey qardaşlar və bacılar, övladlığa götürmüş və övladlığa götürülmüş şəxslər), habelə birgə yaşadığı hallarda digər qohumlara;
4.1.2. nikah pozulduqdan sonra birgə yaşayan keçmiş ər-arvada;
4.1.3. qəyyum və himayəçi təyin olunmuş fiziki şəxslərə, habelə üzərində qəyyumluq və himayəçilik təyin edilmiş şəxslər;
4.1.4. qeyri-rəsmi nikahda birgə yaşayan kişi və qadına, habelə qeyri-rəsmi nikahda yaşayan şəxslərlə birgə yaşayan qohumlara.

II FƏSİL. MƏİŞƏT ZORAKILIĞI BARƏDƏ MÜRACİƏTLƏRƏ BAXILMASI QAYDASI

Maddə 5. Məişət zorakılığı ilə bağlı müraciətlərə baxan dövlət orqanları

5.1. Məişət zorakılığı ilə bağlı müraciətlərə qanunvericiliklə müəyyən edilmiş hallarda və səlahiyyətlər daxilində Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti, polis, prokurorluq və məhkəmə orqanları tərəfindən baxılır.

5.2. Məişət zorakılığı ilə bağlı cinayətlərin törədilməsi haqqında müraciətlər üzrə cinayət təqibi Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

Maddə 6. Məişət zorakılığı barədə müraciətlərin araşdırılması

6.1. Məişət zorakılığı üzrə araşdırmanın aparılmasına əsas aşağıdakılar hesab edilir:
6.1.1. zərər çəkmiş şəxsin özünün və ya onun ailə üzvlərinin müraciəti;
6.1.2. fiziki və ya hüquqi şəxslərdən (dövlət və yerli özünüidarəetmə orqanlarından, təhsil və ya səhiyyə müəssisələrindən, qeyri-hökumət təşkilatlarından, qonşulardan və s.) daxil olmuş müraciətlər.
6.2. Dövlət və yerli özünüidarəetmə orqanlarının vəzifəli şəxsləri, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar, qəyyumluq və himayə orqanları, təhsil və səhiyyə müəssisələri, yardım mərkəzləri xidməti vəzifələrinin həyata keçirilməsi zamanı məişət zorakılığının törədilməsi barədə aldığı məlumatları bu Qanunun 5.2. və 5.3-cü maddələrində müəyyən edilmiş müvafiq icra hakimiyyəti orqanlarına təqdim edirlər.
6.3. Məişət zorakılığı halları barədə müraciətlər müvafiq icra hakimiyyəti orqanları tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada, xüsusi təlimata əsaslanaraq araşdırılır.
6.4. Məişət zorakılığı ilə bağlı törədilmiş cinayətlər haqqında məlumatları əks etdirən müraciətlərə cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxılır.

Maddə 7. Məişət zorakılığı ilə bağlı törədilmiş cinayətlər üzrə cinayət təqibini həyata keçirən müvafiq dövlət orqanının vəzifələri

7.1. Cinayət təqibinin həyata keçirilməsi ilə bağlı qanunvericiliklə müəyyən edilmiş vəzifələrlə yanaşı məişət zorakılığı ilə bağlı törədilmiş cinayətlər üzrə araşdırmanı aparan dövlət orqanı məişət zorakılığı barədə məlumat təsdiqləndikdən sonra aşağıdakı tədbirləri görməlidir:
7.1.1. zərər çəkmiş şəxsin dövlət vəsaitləri hesabına dərhal tibbi yardımla, yardım mərkəzində müvəqqəti sığınacaqla, geyim və qida məhsulları ilə təmin edilməsi, habelə onun barəsində psixoloji reabilitasiya kursunun aparılması məqsədilə müvafiq icra hakimiyyəti orqanına məlumat göndərmək;
7.1.2. məişət zorakılığının yaranmasına səbəb və əsas olan halları aşkar etmək və öz səlahiyyətləri çərçivəsində onların qarşısını almaq istiqamətində tədbirlər görmək;
7.1 zorakılığın qarşısının alınması, təkrarlanmaması, araşdırmanın aparıldığı müddət ərzində zərər çəkmiş şəxsin təhlükəsizliyini təmin etmək;
7.1.4. araşdırmanın aparılması zamanı tərəflərin münasibətlərinin normallaşmasına və ailədə münasibətlərin bərqərar olunmasına kömək göstərmək;
7.1.5. məişət zorakılığını törətmiş şəxslərin profilaktik qeydiyyata götürülməsi və onlarla tərbiyəvi-xəbərdaredici işlərin aparılması;
7.1.6. məişət zorakılığından əziyyət çəkən ailə üzvlərinə onların hüquqlarını, dövlət tərəfindən yaradılan və bu Qanunla müəyyən edilən vasitələrdən istifadə qaydalarını izah etmək;
7.1.7. bu Qanunla göstərilən mühafizə orderini təqdim etmək haqqında sərəncam çıxarmaq;
7.1.8. daxil olmuş müraciət cinayət təqibi ilə bağlı olmadıqda həmin müraciəti aidiyyəti üzrə müvafiq icra hakimiyyəti orqanına göndərmək;
7.1.9. zəruri hallarda məişət zorakılığı barədə müraciətlər üzrə araşdırmanı aparan digər dövlət orqanlarına köməklik göstərmək.

Maddə 8. Cinayət təqibi ilə bağlı olmayan məişət zorakılığı barədə müraciətlər üzrə araşdırmanı aparan müvafiq icra hakimiyyəti orqanının vəzifələri

8.1. Cinayət təqibi ilə bağlı olmayan məişət zorakılığı barədə müraciətlər üzrə araşdırmanı aparan müvafiq icra hakimiyyəti orqanının vəzifələri aşağıdakılardan ibarətdir:
8.1.1. məişət zorakılığı ilə bağlı daxil olmuş məlumatı qanunvericiliklə müəyyən edilmiş qaydada qəbul etmək, qeydiyyatdan keçirmək, araşdırmanın mümkün qədər qısa müddətdə aparılmasını təmin etmək, müvafiq hallarda dərhal hadisə yerində araşdırma aparmaq və tərəfləri ayrılıqda dinləmək;
8.1.2. daxil olmuş müraciətdə cinayət əlamətləri haqqında məlumat olduqda həmin müraciəti aidiyyəti üzrə göndərmək;
8.1.3. müraciət etmiş şəxsə onun hüquqlarını, zorakılığı törədən şəxsin cinayət və inzibati məsuliyyətə cəlb edilməsi, habelə bu məsələ ilə bağlı məhkəməyə müraciət qaydasını izah etmək;
8.1.4. müraciətə səbəb olmuş hərəkətlərin təkrarlanmaması, zorakılığının qarşısının alınması üçün tədbirlər görmək;
8.1.5. araşdırmanın aparıldığı müddət ərzində zərər çəkmiş şəxsin təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görmək;
8.1.6. zəruri hallarda zərər çəkmiş şəxsə hüquqi yardım göstərmək, onu dövlət yardım mərkəzində müvəqqəti sığınacaqla, geyim və qida məhsulları ilə, tibbi və psixoloji yardımla təmin etmək, təhsil alması, işlə təmin olunması, yeni peşələrə yiyələnməsi üçün, habelə sosial müdafiəsi ilə bağlı tədbirlər görmək;
8.1.7. məişət zorakılığında əziyyət çəkən yetkinlik yaşına çatmamış şəxslərin hüquqlarının və qanuni mənafelərinin müdafiəsi ilə bağlı tədbirlər görmək;
8.1.8. tərəflərin münasibətlərinin normallaşmasına və ailə münasibətlərinin bərpa olmasına köməklik göstərmək;
8.1.9. məişət zorakılığının təkrarlanmaması barədə zorakılıq törətmiş şəxsə xəbərdarlıq etmək və həmin xəbərdarlığın icrasına nəzarət etmək;
8.1.10. məişət zorakılığı ilə bağlı inzibati xətalar üzrə qanunvericiliklə müəyyən edilmiş qaydada araşdırma aparmaq və bu cür zorakılıq törətmiş şəxslərin inzibati məsuliyyətə cəlb edilməsi ilə bağlı məhkəməyə müraciət etmək;
8.1.11. zərər çəkmiş şəxsə mühafizə orderinin verilməsi ilə əlaqədar məhkəməyə müraciət etmək;
8.1.12. bu Qanunun 13-cü maddəsində nəzərdə tutulmuş tədbirləri təşkil etmək;
8.1.13. məişət zorakılığı ilə bağlı məlumat bankını yaratmaq, statistik məlumatların toplanmasını təşkil etmək;
8.1.14. qeyri-dövlət yardım mərkəzlərinin fəaliyyəti ilə bağlı normativ tənzimləməni və onların akkreditasiyasını həyata keçirmək;
8.1.15. məişət zorakılığının qarşısının alınması sahəsində beynəlxalq və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq etmək;
8.1.16. məişət zorakılığının qarşısının alınması sahəsində digər dövlət orqanlarının bu sahədə fəaliyyətinə köməklik göstərmək.

Maddə 9. Məişət zorakılığı üzrə araşdırmanın nəticələrinə dair qərar

9.1. Araşdırmanın nəticələrindən asılı olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən aşağıdakı qərarlardan biri qəbul olunur:

9.1.1. məişət zorakılığı ilə bağlı hərəkətlər törətmiş şəxsə qanunvericiliklə müəyyən olunmuş cinayət və inzibati məsuliyyət izah edilməklə, məişət zorakılığının təkrarlanmaması barədə xəbərdarlıq edilməsi;
9.1.2. məişət zorakılığı ilə bağlı hərəkətlər törətmiş şəxsin qanunvericiliklə müəyyən olunmuş qaydada valideynlik hüququndan məhrum edilməsi və ya valideynlik hüquqlarının məhdudlaşdırılması ilə bağlı məhkəməyə müraciət edilməsi;
9.1.3. əməllərində cinayət tərkibi və ya inzibati xəta olan şəxsin qanunvericiliklə müəyyən olunmuş qaydada cinayət və ya inzibati məsuliyyətə cəlb edilməsi barədə səlahiyyətli dövlət orqanlarına müraciət edilməsi;
9.1.4. zərər çəkmiş şəxsə mühafizə orderinin verilməsi ilə əlaqədar məhkəməyə müraciət edilməsi;
9.1.5. zərər çəkmiş şəxsin yardım mərkəzində sığınacaqla təmin edilməsi haqqında.

Maddə 10. Məişət zorakılığının təkrarlanmaması barədə xəbərdarlıq

10.1. Zərər çəkmiş şəxs və ya onun adından digər şəxs hər bir ailə üzvünün həyatı və sağlamlığı üçün bilavasitə təhlükəli şəraiti yarandıqda məişət zorakılığını törətmiş şəxsə xəbərdarlıq edilməsi barədə müraciət edə bilər.
10.2. Şəxsin hərəkətləri cinayət məsuliyyəti yaratmadıqda, lakin bu hərəkətlər nəticəsində zərər çəkmiş şəxsin hüquqları və qanunla qorunan mənafeləri pozulduqda, müvafiq icra hakimiyyəti orqanı tərəfindən məişət zorakılığı ilə bağlı hərəkətləri törətmiş şəxsə həmin və ya ona oxşar hərəkətlərin təkrarlanmaması barədə yazılı xəbərdarlıq edilir.
10.3. Zərər çəkmiş şəxsin və ya onun adından digər şəxsin müraciət etdiyi vaxtdan 24 saat müddətində müvafiq icra hakimiyyəti orqanı tərəfindən zorakılığı törədən şəxsə xəbərdarlıq edilir.
10.4. Xəbərdarlıq 30 gün müddətinə verilir. Xəbərdarlıq edilməsi barədə məhkəməyə şikayət verilə bilər.
10.5. Məişət zorakılığı ilə bağlı hərəkətlər törətmiş şəxsin xəbərdarlığa əməl edilməməsi mühafizə orderinin verilməsi və həmin şəxsin daha ciddi inzibati məsuliyyətə cəlb edilməsi üçün əsasdır.

Maddə 11. Mühafizə orderi

11.1. Mühafizə orderində məişət zorakılığını törətmiş şəxsə aşağıdakılar qadağan edilə bilər:
11.1.1. zorakılığın təkrar törədilməsi;
11.1.2. zərər çəkmiş şəxslə ünsiyyətdə olma;
11.1.3. zərər çəkmiş şəxsin olduğu yer ona məlum olmadıqda həmin şəxsin axtarılması;
11.1.4. zərər çəkmiş şəxsə narahatlıq gətirən digər hərəkətlərin görülməsi;
11.2. Mühafizə orderində aşağıdakılar nəzərdə tutula bilər:
11.2.1. məişət zorakılığını törətmiş şəxsin yetkinlik yaşına çatmamış uşaqları ilə ünsiyyət qaydaları;
11.2.2. yaşayış sahəsindən və ya birgə əmlakdan istifadə qaydalarının müəyyən edilməsi;
11.2.3. zərər çəkmiş şəxsə tibbi və hüquqi yardımın göstərilməsi ilə bağlı xərclərin məişət zorakılığını törətmiş şəxs tərəfindən ödənilməsi şərtləri.
11.2.4. mühafizə orderinin tələblərini icra etməyən şəxsin inzibati məsuliyyətə cəlb olunmasının izah edilməsi haqqında məlumat.
11.3. Mühafizə orderi məhkəmə qərarlarının icrası haqqında qanunvericiliklə müəyyən edilmiş qaydada icra olunur. Mühafizə orderini icra etməyən şəxs məhkəmə qərarının icra edilməməsinə görə qanunvericiliklə müəyyən edilmiş qaydada cinayət məsuliyyətini daşıyır.

Maddə 12. Mühafizə orderinin verilməsi qaydası

12.1. Məişət zorakılığı ilə bağlı hərəkətləri törətmiş şəxs verilmiş xəbərdarlığa əməl etmədikdə, zərər çəkmiş şəxs və ya müvafiq icra hakimiyyəti orqanı mühafizə orderinin verilməsi üçün məhkəməyə müraciət etmək hüququna malikdirlər.
12.2. Mühafizə orderi 30 gündən 180 günədək müddətə verilir. Mühafizə orderinin verilməsi barədə məhkəmə qərarı qanunvericiliklə müəyyən edilmiş qaydada çıxarılır.
12.3. Tərəflərin şəxsi və ailə həyatı sirrinin yayılmasının qarşısını almaq, habelə yetkinlik yaşına çatmamış şəxslərin maraqlarının təmin edilməsi məqsədilə mühafizə orderinin verilməsi barədə işə qanunvericiliklə müəyyən edilmiş qaydada qapalı məhkəmə iclasında baxıla bilər.
12.4. Mühafizə orderinin verilməsi barədə qərar elan edildiyi gündən qüvvəyə minir və müddəti hesablanır. Mühafizə orderinin verilməsi barədə qərar 24 saat müddətində icraya yönəldilir.
12.5. Mühafizə orderinin verilməsi barədə qərardan qanunvericiliklə müəyyən edilmiş qaydada şikayət verilə bilər. Yuxarı instansiya məhkəməsinə şikayətin verilməsi mühafizə orderi üzrə qərarın icrasını dayandırmır.
12.6. Mühafizə orderinin surəti onun çıxarıldığı gün tərəflərə verilməlidir.

III FƏSİL. MƏİŞƏT ZORAKILIĞININ QARŞISININ ALINMASI SAHƏSİNDƏ TƏDBİRLƏR

Maddə 13. Məişət zorakılığının qarşısının alınması sahəsində tədbirlərin növləri

13.1. Məişət zorakılığının qarşısının alınması sahəsində tədbirlərin aşağıdakı növləri var:
13.1.1. hüquqi tədbirlər - məişət zorakılığı hallarının araşdırılması, məişət zorakılığına yol vermiş şəxslərin qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilməsi;
13.1.2. sosial tədbirlər - məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial müdafiəsi üzrə, o cümlədən müvəqqəti sığınacaqla təmin edilməsi, onlara dövlət hesabına hüquqi və tibbi yardımın göstərilməsi, habelə digər sosial yönümlü tədbirlərin həyata keçirilməsi;
13.1.3. xəbərdaredici tədbirlər - məişət zorakılığının mənfi hüquqi, tibbi və sosial nəticələrinin əhali arasında izah edilməsi, məişət zorakılığının qarşısının alınmasına yönəlmiş digər maarifləndirmə tədbirlərin təşkili.
13.2. Məişət zorakılığının qarşısının alınması ilə bağlı tədbirlər üzrə müvafiq icra hakimiyyəti orqanı tərəfindən dövlət proqramları qəbul edilir.

Maddə 14. Məişət zorakılığının qarşısının alınması sahəsində hüquqi tədbirlər

14.1. Məişət zorakılığının qarşısının alınması sahəsində hüquqi tədbirlər aşağıdakılardan ibarətdir:
14.1.1. məişət zorakılığı ilə bağlı cinayət təqibinin həyata keçirilməsi;
14.1.2. məişət zorakılığı ilə bağlı inzibati xətalar törətmiş şəxslərin inzibati məsuliyyətə cəlb edilməsi;
14.1.3. zərər çəkmiş şəxslərin hüquqlarının, azadlıqlarının və qanuni mənafelərinin müdafiəsi, araşdırmanın aparıldığı müddət ərzində müraciət etmiş şəxsin təhlükəsizliyinin təmin edilməsi;
14.1.4. zərər çəkmiş şəxslərin dövlət vəsaitləri hesabına hüquqi yardımla təmin edilməsi;
14.1.5. məişət zorakılığı ilə bağlı işlərə dair məhkəmə qərarlarının icrasının təmin edilməsi;
14.1.6. məişət zorakılığı ilə bağlı verilmiş xəbərdarlığın icrasına nəzarətin həyata keçirilməsi;
14.1.7. məişət zorakılığı ilə bağlı hərəkətləri törətmiş şəxslərin qanunvericiliklə müəyyən olunmuş qaydada valideynlik hüququndan məhrum edilməsi və ya valideynlik hüquqlarının məhdudlaşdırılması;
14.1.8. məişət zorakılığı ilə bağlı statistik məlumatların toplanılması;

14.1.9. qanunvericiliklə müəyyən edilmiş qaydada məişət zorakılığı ilə bağlı məlumatların konfidensiallığının təmin edilməsi;
14.1.10. qeyri-dövlət yardım mərkəzlərinin fəaliyyəti ilə bağlı normativ tənzimləmənin və qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyasının həyata keçirilməsi;
14.1.11. müraciətə səbəb olmuş hərəkətlərin təkrarlanmaması, zorakılığın qarşısının alınması üçün qanunvericiliyin təkmilləşdirilməsi ilə təkliflərinin təqdim edilməsi.

Maddə 15. Məişət zorakılığının qarşısının alınması sahəsində sosial tədbirlər

15.1. Məişət zorakılığının qarşısının alınması sahəsində sosial tədbirlər aşağıdakılardan ibarətdir:
15.1.1. zərər çəkmiş şəxslərin sosial müdafiəsinin təşkili, onlara müvafiq sənədlərin və ya qanunvericiliklə müəyyən edilmiş sosial müavinətlərin alınmasında köməklik göstərilməsi;
15.1.2. zərər çəkmiş şəxslərə təhsilin davam etdirilməsinə kömək göstərilməsi;
15.1.3. zərər çəkmiş şəxslərin işlə təmin edilməsində, yeni peşələrə yiyələnməsində kömək göstərilməsi;
15.1.4. zərər çəkmiş şəxslərə dövlət vəsaitləri hesabına tibbi yardımın göstərilməsi;
15.1.5. zərər çəkmiş şəxslər üçün psixoloji reabilitasiya kurslarının təşkili;
15.1.6. zərər çəkmiş şəxslər üçün yardım mərkəzlərinin yaradılması;
15.1.7. zərər çəkmiş uşaqların sosial qayğı ilə təmin edilməsi üçün tədbirlərin görülməsi;
15.1.8. zərər çəkmiş şəxslərin sosial müdafiəsi istiqamətində digər tədbirlərin həyata keçirilməsi.

Maddə 16. Məişət zorakılığı ilə bağlı xəbərdaredici tədbirlər

16.1. Məişət zorakılığı ilə bağlı xəbərdaredici tədbirlər məişət zorakılığının qarşısının alınmasına, ailələrdə normal münasibətlərin yaradılmasına, məişət zorakılığı hallarının və ondan yaranan mənfi hüquqi, tibbi və sosial nəticələrin aradan qaldırılmasına yönəlir.
16.2. Məişət zorakılığı ilə bağlı xəbərdaredici tədbirlər aşağıdakılardan ibarətdir:
16.2.1. məişət zorakılığı əleyhinə maarifləndirmə işinin aparılması;
16.2.2. məişət zorakılığı hallarının və onun doğurduğu mənfi hüquqi, tibbi və sosial nəticələrin izah edilməsi;
16.2.3. məişət zorakılığının qarşısının alınması üsullarının izah edilməsi;
16.2.4. əhali arasında yüksək mədəniyyətə və qarşılıqlı hörmətə əsaslanan ailə münasibətlərinin təbliğ edilməsi;
16.2.5. məişət zorakılığına səbəb olan halların araşdırılması, təhlil edilməsi, onların qarşısının alınmasına yönəlmiş tövsiyələrin, proqramların hazırlanması, maarifləndirmə tədbirlərinin təşkili;
16.2.6. məişət zorakılığı halları baş vermiş ailələr üzərində nəzarətin həyata keçirilməsi, habelə məişət zorakılığı halları baş verməsi ehtimal olunan ailələrin müəyyən edilməsi və həmin ailələr üzərində nəzarətin həyata keçirilməsi;
16.2.7. məişət zorakılığına görə qanunvericiliklə müəyyən olunmuş məsuliyyətin izah edilməsi;
16.2.8. məişət zorakılığı törətmiş şəxslərə belə halların təkrarlanmaması barədə xəbərdarlıq edilməsi.
16.2.9. məişət zorakılığı ilə bağlı sorğuların keçirilməsi;
16.2.10. məişət zorakılığı ilə mübarizə haqqında əhalinin maarifləndirilməsi;
16.3. Məişət zorakılığı halları baş vermiş, habelə məişət zorakılığı halları baş verməsi ehtimal olunan ailələr üzərində nəzarətin həyata keçirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 17. Zərər çəkmiş şəxslərə yardım göstərildikdə konfidensiallığın təmin edilməsi

17.1. Şəxs barəsində məişət zorakılığının törədilməsi faktı və zərər çəkmiş şəxslərə yardım göstərildiyi vaxt müəyyən edilmiş şəxsi və ailə həyatı barəsində məlumatlar konfidensial hesab olunur.
17.2. Məişət zorakılığı ilə bağlı müraciətlərin araşdırılması, məişət zorakılığı ilə bağlı statistik məlumatların toplanılması, zərər çəkmiş şəxslərə yardımın göstərilməsi zamanı məlumatların konfidensiallığı, şəxsi və ailə sirrinin yayılmaması təmin edilməlidir.
17.3. Məlumat bankında toplanmış məlumatların konfidensiallığı məlumat bankını aparan müvafiq icra hakimiyyəti orqanı tərəfindən təmin olunur. Məişət zorakılığı ilə bağlı məlumatlar yalnız qanunvericiliklə müəyyən edilmiş hallarda verilə bilər. Məişət zorakılığı ilə bağlı statistik məlumatlar adsızlaşdırılmış şəkildə açıqlanmalıdır.
17.4. Xidməti fəaliyyəti ilə bağlı məişət zorakılığı barədə müraciətlərin araşdırılması zamanı məlumatların konfidensiallığını təmin etməyən vəzifəli şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Maddə 18. Məişət zorakılığı ilə bağlı məlumat bankı

18.1. Məişət zorakılığı ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən məlumat bankı yaradılır.
18.2. Məlumat bankında baş vermiş məişət zorakılığı halları, məişət zorakılığı halları ilə bağlı dövlət orqanlarına müraciət etmiş şəxslər, məişət zorakılığı halları ilə bağlı aparılmış araşdırmalar və araşdırmaların nəticələri, məişət zorakılığı halları ilə əlaqədar cinayət və inzibati məsuliyyətə cəlb edilmiş şəxslər, məhkəmə qərarları, o cümlədən valideynlik hüquqlarından məhrum edilmiş və ya valideynlik hüquqları məhdudlaşdırılmış şəxslər, eləcə də valideynlik hüquqları bərpa edilmiş və ya valideynlik hüquqlarının məhdudlaşdırılması ləğv edilmiş şəxslər, akkreditə edilmiş yardım mərkəzləri və onların fəaliyyəti barədə və digər məlumatlar toplanılır.
18.3. Məlumat bankının fəaliyyətinin təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.
18.3. Dövlət orqanları, qeyri-dövlət yardım mərkəzləri məişət zorakılığı halları ilə bağlı məlumatları müvafiq icra hakimiyyəti orqanına təqdim etməlidirlər.
18.4. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən məlumat bankında məişət zorakılığı halları üzrə toplanan məlumatlar əsasında ümumiləşdirmələr və təhlil materialları hazırlanır.

Maddə 19. Yardım mərkəzləri

19.1. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən zərər çəkmiş şəxslər üçün dövlət yardım mərkəzləri təşkil olunur. Dövlət yardım mərkəzlərinin göstərdiyi xidmətlər ödənişsizdir.
19.2. Yardım mərkəzlərinin vəzifələri aşağıdakılardan ibarətdir:
19.2.1. zərər çəkmiş şəxsləri hüquqi və tibbi yardımla təmin etmək;
19.2.2. zərər çəkmiş şəxslərin işlə təmin edilməsində, yeni peşələrə yiyələnməsində köməklik göstərmək;
19.2.3. zərər çəkmiş şəxslər üçün psixoloji reabilitasiya kursunu təşkil etmək;
19.2.4. zərər çəkmiş şəxslərin sosial müdafiəsi üçün müvafiq sənədlərin hazırlanmasında və ya sosial müavinətlərin alınmasında kömək göstərmək;
19.2.5. zəruri hallarda zərər çəkmiş şəxsləri müvəqqəti sığınacaqla təmin etmək;
19.2.6. zərər çəkmiş şəxslərin ailələrində normal həyat tərzinin bərpa edilməsi üçün tədbirlər görmək;
19.2.7. məişət zorakılığı ilə bağlı xəbərdaredici tədbirləri həyata keçirmək;

19.2.8. zərər çəkmiş şəxslərin qarşılıqlı yardım qruplarını təşkil etmək;
19.2.9. zərər çəkmiş şəxslərin sosial müdafiəsi ilə bağlı digər tədbirlərin həyata keçirilməsini təmin etmək.
19.3. Zəruri hallarda zərər çəkmiş şəxslər yardım mərkəzində bir qayda olaraq 2 ay müddətinədək, yetkinlik yaşına çatmamış şəxslər isə 3 ay müddətinədək sığınacaqla təmin oluna bilər.
19.4. Yardım mərkəzləri həmçinin yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları tərəfindən yaradıla bilər. Qeyri-dövlət yardım mərkəzləri müvafiq icra hakimiyyəti orqanında akkreditasiya olunmalıdır.
19.5. Yardım mərkəzlərinin fəaliyyəti qaydası, qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiya qaydalarına dair normativlər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

IV FƏSİL. YEKUN MÜDDƏALAR

Maddə 20. Qanunun pozulmasına görə məsuliyyət

Bu Qanunun və məişət zorakılığı ilə bağlı digər qanunvericilik aktlarının tələblərini pozan şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Maddə 21. Qanunun qüvvəyə minməsi

Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

Məişət Zorakılığı ilə bağlı Ölkə üzrə son Xəbərlər

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova: "Qanuna hörmət bizim ölkənin hər bir vətəndaşının davranış normasına çevrilməlidir"

03.09.2009-cu il Neytral.az

Təkcə 2008-ci ildə ölkənin hüquq-mühafizə orqanları tərəfindən qadınlara qarşı zorakılıqla bağlı 4270 cinayət faktı qeydə alınıb. Bu da "Məişət zorakılığının qarşısının alınması haqqında" qanun layihəsinin tezliklə qəbulunun vacibliyini bir daha təsdiqləyir. Bu problem mənəvi məsələ olduğuna görə yalnız cəmiyyətdə maarifləndirmə yolu ilə köklü dəyişikliklərə nail olmaqla onun çözülməsi mümkündür". Bunu Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova deyib. Onun sözlərinə görə, "Məişət zorakılığının qarşısının alınması haqqında" qanun layihəsi hazırlanıb Milli Məclisə təqdim olunanda ona münasibət birmənalı olmayıb. Çoxları qanunun mahiyyətinə varmadan, onun müddəalarını anlamadan belə bir yanlış fikir yürüdürlər ki, bu qanun bizim milli mentalitetimiz ilə üst-üstə düşmür. "Qanuna hörmət bizim ölkənin hər bir vətəndaşının davranış normasına çevrilməlidir. Əgər insanlar sonsuz hüquqlar və azadlıqlarla yanaşı həm də öhdəliklərin olduğu ruhunda tərbiyə olunsaydılar, belə neqativ faktlar bizim gündəlik həyatımızdan silinərdi. Təəssüf ki, hələlik çoxlarında bu vacib anlayış formalaşmayıb" deyə o, vurğulayıb.

Azərbaycan Parlamentinin komitə sədri məişət zorakılığı ilə bağlı mükəmməl qanun layihəsinin hazırlandığını düşünür.

07.09.2009-cu il Trend News, A.Hüseynbala

Azərbaycan Parlamentinin komitə sədri məişət zorakılığı ilə bağlı mükəmməl qanun layihəsinin hazırlandığını düşünür.
"Məişət zorakılığının qarşısının alınması haqqında" qanun layihəsi ilk dəfə müzakirə olunarkən onun əleyhinə çıxanlardan biri mən idim", - Trend News-un məlumatına görə, bazar ertəsi hakim Yeni Azərbaycan Partiyasının (YAP) internet saytına Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Rəbiyyət Aslanova bildirib.
Trend News-un arayışı: Dünya statistikasına görə, hər il dünyada 4 milyon qadın zorakılığa məruz qalır, onlardan 170 mini hamiləlik dövründə olan qadınlardır. Cəmiyyətdə baş verən belə halların qarşısını almaq üçün ailə-məişət zorakılığının aradan qaldırılmasına yönəldilmiş qanunlar qəbul edilir, dövlət orqanları, QHT-lər bu problemlə daim məşğul olurlar.
Belə qanunlar artıq neçə ildir ki, MDB ölkələrində də tətbiq olunur. Məsələn, məlumatlara görə, Ukraynada, Moldovada və qonşu Gürcüstanda oxşar qanunun qəbul edilməsindən sonra bu ölkələrdə ailədaxili zorakılıq halları 20-30 faiz aşağı düşüb.
Xarici ölkələrin təcrübəsi də bunu deməyə imkan verir. Məsələn, İsveçrədə bu qanun 1998-ci ildə, Avstriyada 1996-cı ildə, Finlandiyada 1996-cı ildə, ABŞ-da isə 1994-cü ildə qəbul olunub.
Uzun müddətdir ki, bu cür zorakılıqla bağlı qanun pozuntuları ən yaxşı halda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin bir neçə maddələri ilə əhatə olunur. Bu isə zorakılığın yalnız bir növünü - fiziki zorakılığı əhatə edir. Zorakılığın başqa formaları isə hüquqi nizamlamadan və məsuliyyətdən kənarda qalır. Bu səbəbdən "Məişət zorakılığının qarşısının alınması haqqında" qanun layihəsi hazırlanıb.
Aslanovanın sözlərinə görə, əvvəlki layihəyə əsas etirazlar qanunun fəlsəfəsi ilə deyil, sənəddə əksini tapan bir sıra müddəaların tam gerçəkliyə cavab verməməsi ilə bağlı idi. "Mən də əvvəlki layihədəki bütün müddəaların həyata keçiriləcəyinə, real həyatda icra olunacağına inanmırdım,

inanmadığım bir məsələyə də səs verə bilməzdim. Əsas istəyimiz o idi ki, qəbul olunan qanun sonradan işlək mexanizmdə olsun", - komitə sədri əlavə edib.
Millət vəkilinin fikrincə, ötən müddətdə qanun layihəsinin üzərində xeyli iş gedib. "İndiki qanun layihəsi əvvəlkindən tamamilə fərqlənir və çox mükəmməl bir hüquqi sənəddir. Lakin bu o demək deyil ki, bunun üzərində iş getməyəcək. Şübhəsiz ki, zaman keçdikcə, tələblər dəyişdikcə bu qanunun üzərində də müəyyən dəyişikliklər edilməlidir", - Aslanova vurğulayıb.

Məişət zorakılığı müzakirə ediləcək
Hadı Rəcəbli: "Bununla bağlı qanunun qəbulu istisna olunmur"

15.09.2009-cu il Həftə İçi qəzeti

Dünən "Azərbaycanda ailədaxili münasibətlərdə uşaq hüquqları" çərçivəsində müzakirələr aparılıb.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə Təhsil, Daxili İşlər, Ədliyyə Nazirliyi, bir sıra icra hakimiyyətinin nümayəndələri, YUNİSEF-in Azərbaycandakı nümayəndəliyi və millət vəkili Hadı Rəcəbli iştirak edib. Onlar Azərbaycan uşaqlarının hüquqlarının necə qorunduğu və ya qorunmalı olduğu, ümumiyyətlə, bu sahədəki hazırkı vəziyyət və mövcud çətinliklərin aradan qaldırılmasına toxunublar. AQUPDK-nın sədri Hicran Hüseynova ölkə başçısının 2009-cu il 18 fevral tarixli sərəncamı ilə təsdiqlənmiş "Uşaq ili" ilə bağlı tədbirlər planı çərçivəsində il ərzində ölkədə uşaqların təhsili və sağlamlığı, onların vətənpərvərlik, milli-mənəvi ruhda tərbiyə edilməsi yönündə müxtəlif tədbirlərin həyata keçirildiyini desə də, bəzi çətinlik və problemlərin hələ də qaldığını bildirib. YUNİSEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Mark Herevard isə dünya praktikasından irəli gələn bəzi yeniliklərin həyata keçirilməsini vacib sayıb: "Belə müzakirələrin həyata keçirilməsi həm də o aspektdən müsbətdir ki, bir çox problemlər üzə çıxır. Ola bilər uşaqların hüquqlarının müdafiəsində maliyyə xərcləri sarıdan problemlər olsun, valideyn-uşaq münasibətlərində tənzimlənmə düzgün qurulmasın. Bunlar hamısı belə müzakirələrdə aydınaşır". Ailədaxili münasibətlərdə uşaq hüquqları və bu sahədə qanunvericilik barədə danışan millət vəkili Hadı Rəcəbli isə Azərbaycanda bu sahədə müsbət dəyişiklik əldə etmək üçün o qədər də ciddi problemlərin və maneələrin olmadığını vurğuladı:
"Azərbaycan yeganə dövlətlərdəndir ki, uşaqların hüquqları haqqında qanunun bir fəsli uşaq və ailə münasibətlərinə həsr edilib. Amma çox təəssüf hissi ilə deyirəm ki, son vaxtlar valdeynin uşağını öldürməsi və ya əksinə hallar var". Millət vəkilinin fikrincə, bu cür mənfi halların sayını azaltmaq üçün məişət zorakılığı haqqında qanun nəzərdə tutulur ki, bu qanun layihəsi də artıq hazırdır və Milli Məclisin payız sesiyasında müzakirəyə çıxarılması planlaşdırılır. Parlamentin növbəti sessiyasında 18 yaşına çatmayan qızların ərə verilməsi ilə bağlı ciddi müzakirələr aparılacağı da istisna edilmir. Hər halda, H.Rəcəbli bu problemlərin də yaxın gələcəkdə öz həllini tapmasını vacib sayır. Ailədaxili münasibətlərin uşaqların təhsilinə təsiri mövzusunda çıxış edən təhsil nazirinin müavini İradə Hüseynova bu məsələdə daha çox valideynləri diqqətli olmağa çağırıb. Amma bu baxımdan təhsil işçilərinin da lazımi işlər görməsini və mütəmadi olaraq valideynlərlə kontaktda olmasını vacib amil sayıb.

“ Məişət zorakılığı” haqqında qanun Milli Məclisə təqdim olunacaq”

17.09.2009-cu il Riyad Media.com

Ailə Qadın və Uşaq üzrə Dövlət komitəsinin sədri Hicran Hüseynova “Məişət Zorakılığı” haqqında qanun hazırlandığını və Milli Məclisə təqdim olunacağını bildirib.RİYAD MEDİA-nın məlumatına görə H.Hüseynova bildirib ki, biz bu qanunun qəbul olunmasına çalışırıq. Onun sözlərinə görə əsas məqsəd qızların təhsildən yayınmasının qarşısını almaqdır. Ucqar rayonlarda Komitəmiz bununla bağlı ciddi işlər aparır və dəyişikliklər hiss edilir. Ötən əsrin əvvəllərinə nəzər salasaq qadınların bu günkü günlə müqaisədə daha çox inkişaf etdiyini görərik. Ailələri maarifləndirmək istəyirik ki, onlar qızlarını təhsildən yayındırmaqla, övladlarının inkişafını dayandırırlar.

Azərbaycanda Məişət zorakılığı haqqında qanun qəbul oluna bilər

25.09. 2009-cu il Xəbərlər-Azərbaycan

Bu gün «Azərbaycanda ailədaxili münasibətlərdə uşaq hüquqları» çərçivəsində müzakirələr aparılıb. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə Təhsil, Daxili İşlər, Ədliyyə Nazirliyi, bir sıra icra hakimiyyətinin nümayəndələri, UNİCEF-in Azərbaycandakı nümayəndəliyi və millət vəkili Hadi Rəcəbli iştirak edib.
Onlar Azərbaycan uşaqlarının hüquqlarının necə qorunduğu və ya qorunmalı olduğu, ümumiyyətlə bu sahədəki hazırki vəziyyət və mövcud çətinliklərin aradan qaldırılmasına toxunublar. İlk çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova ölkə başçısının 2009-cu il 18 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş «Uşaq ili» ilə bağlı tədbirlər planı çərçivəsində il ərzində ölkədə uşaqların təhsili və sağlamlığı, onların vətənpərvərlik, milli-mənəvi ruhda tərbiyə edilməsi yönündə müxtəlif tədbirlərin həyata keçirildiyini desə də, bəzi çətinlik və problemlərin hələ də qaldığını bildirib.
UNİSEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Mark Herevard isə dünya praktikasından irəli gələn bəzi yeniliklərin həyata keçirilməsini vacib sayıb: «Belə müzakirələrin həyata keçirilməsi həm də o aspektdən müsbətdir ki, bir çox problemlər üzə çıxır. Ola bilər ki, uşaqların hüquqlarının müdafiəsində maliyyə xərcləri sarıdan problemlər olsun, ola bilər ki, valideyn-uşaq münasibətlərində tənzimlənmə düzgün qurulmayıb. Bunlar hamısı belə müzakirələrdə üzə çıxa bilər».
Ailədaxili münasibətlərdə uşaq hüquqları və bu sahədə qanunvericilik haqda danışan millət vəkili Hadı Rəcəbli isə Azərbaycanda bu sahədə müsbət dəyişiklik əldə etmək üçün o qədər də ciddi problemlərin və maneələrin olmadığını bildirir: «Azərbaycan yeganə dövlətlərdəndir ki, uşaqların hüquqları haqqında qanunun bir fəsli uşaq və ailə münasibətlərinə həsr edilib. Amma çox təəssüf hissi ilə deyirəm ki, son vaxtlar valideynin uşağını öldürməsi və ya əksinə hallar var». Millət vəkilinin fikrincə, bu cür neqativ halların sayını azaltmaq üçün məişət zorakılığı haqqında qanun nəzərdə tutulur ki, bu qanun layihəsi də artıq hazırdır və Milli Məclisin payız sessiyasında müzakirəyə çıxarılması planlaşdırılır. Parlamentin növbəti sessiyasında 18 yaşına çatmayan qızların ərə verilməsi ilə bağlı ciddi müzakirələr aparılacağı da istisna edilmir. Hər halda, Hadı Rəcəbli bu problemlərin də yaxın gələcəkdə öz həllini tapmasını vacib sayır.
Ailədaxili münasibətlərin uşaqların təhsilinə təsiri mövzusunda çıxış edən təhsil nazirinin müavini İradə Hüseynova bu məsələdə daha çox valideynləri diqqətli olmağa çağırıb. Amma bu baxımdan təhsil işçilərinin da lazımi işlər görməsini və mütəmadi olaraq valideynlərlə kontaktda olmasını nazir müavini ən vacib amil sayıb.

Ali Məhkəmənin hakimi: "Ailə-məişət zəminində törədilən cinayətlərin sayının artması sosial problemlərlə - işsizlik, yoxsulluq ilə əlaqəlidir"

06.10.2009-cu il Deyerler AİN

Son illər Azərbaycanda törədilən cinayətlərin motivi dəyişib. Mətbuatın, televiziyaların gündəlik xəbərləri sırasında bu qəbildən olan məlumatlar çoxluq təşkil edir. Mətbuatın gündəlik məlumatlarından ən azı 5-6-sı sağlamlıq əleyhinə törədilən və məişət zorakılığı ilə bağlı xəbərlərdir. Həm də baş verən cinayətlərin, xüsusilə amansızlıqla törədilməsinin şahidi oluruq. İndi qardaşın qardaşı, övladın ananı, arvadın ərini, qayınatanın gəlini öldürməsi, başını kəsməsi, zorlaması və.s faktlara daha tez-tez rast gəlinir.Ekspertlər hesab edir ki, son illər bu qəbildən olan cinayətlər çoxalıb. Bir qism isə bu fikirdədir ki, əvvəllər də bu qəbildən olan cinayətlər çox olub. Sadəcə, həmin faktlar gizlədilib, mətbuata yol tapa bilməyib. Ali Məhkəmənin hakimi Müzəffər Ağazadə çərşənbə axşamı Trend News-a bildirib ki, bu ilin 6 ayında respublikada məhkəmələr tərəfindən 6 667 nəfər müxtəlif cinayətlərə görə məhkum olunub. Onlardan 1407-si həyat və sağlamlıq əleyhinə cinayət törədib (ötən ilin 6 ayında bu göstərici 1357 olub). Bu ilin 6 ayında qəsdən adaməldürmə cinayəti üzrə məhkum olunanlar 8 (110 nəfər), cinsi azadlıq əleyhinə cinayətlərə görə məhkum olunanlar 25 (87 nəfər) nəfər artıb. Ağazadə deyir ki, digər MDB ölkələri ilə müqayisədə Azərbaycanda adambaşına düşən ağır cinayətlərin sayı az, açılma faizi isə çoxdur. Ali Məhkəmənin hakimi respublikada cinayətlərin sayının azlığını milli xüsusiyyətlərlə əlaqələndirir. Hakim bildirib ki, bizdə qohumluq əlaqələrinə hörmət, ailəyə bağlılıq yüksək olduğundan, bu qəbildən olan cinayətlər çoxluq təşkil etmir. Ağazadə respublikada ailə-məişət zəminində törədilən cinayətlərin sayının artmasını sosial problemlərlə - işsizlik, yoxsulluq ilə əlaqələndirir. Respublikanın baş psixiatrı Gəray Gəraybəyli Trend News-a açıqlamasında bu cinayətlərin statistikasını aparmadan onların artan dinamika ilə inkişafını söyləməyi qeyri-mümkün hesab edir. Baş psixiatr deyir ki, bu qəbildən olan cinayətlərin baş vermə səbəbləri sırasında birinci yeri cəmiyyətdəki aqressivlik tutur. "Bir necə gün öncə üç yeniyetmənin söhbətinin şahidi oldum. Onlardan biri televiziyada izlədiyi qaydasız döyüş barədə danışırdı. Onların söhbətini eşitməyən biri kənardan müşahidə etsəydi yeniyetmələrin xoş, ürəkaçan nəsə bir mövzu barədə danışdığını hesab edərdi. Amma yeniyetmə döyüş zamanı döyüşənlərdən birinin digərini necə döydüyünü, başını partlatdığını, al-qana qərq etdiyini danışırdı. Digərlərinin üzündə elə bir ifadə vardlı ki, sanki həmin döyüşü izləməmələrinə peşiman idilər. Yeniyetmələrdə aqressivlik o qedər yüksək həddədir ki, kimisə vurmaq, xəsarət yetirmək haqqında sakit danışırlar", - deyə Gəraybəyli bildirib. Baş psixiatr idmana gedən usaqlar arasında kiçik bir araşdırma apardığını və uşaqların əksəriyyətinin idmanın döyüş növlərinə üstünlük verdiyini deyir. Gəraybəylinin sözlərinə görə, bu hal insanların aqressivliyə meyilliliyi ilə əlaqədardır. Baş psixiatrın qənaətincə, televiziyalarda nümayiş olunan filmlər də insanlarda aqressivliyi inkişaf etdirir. "Televiziyalarda nümayiş olunan 10 kinodan 8-də döyüş, zor, işgəncə səhnələri, gücün zoruna qalib olmaq səhnələri nümayis edilir. Bu filmlər də insanlarda aqressivliyi inkişaf etdirir", - o deyib. "Belə filmlərdə adam öldürən, qan tökən, fiziki gücü olan qəhrəmanlar müsbət xarakterizə olunur. Şəxsiyyətində qüsur olan insanlar da özünü realizə etmək üçün bu hissləri keçirməyə meyilli olurlar. Onda, belə şəxslərin istəkləri rellığa çevrilir və konkret hərəkətlərdə özünü göstərir", - deyə Gəraybəyli vurğulayıb. Gəraybəyli deyir ki, əgər yeniyetmələrdə, gənclərdə aqressivliyin səviyyəsi artırsa, onda cinayətə meyilli şəxslərdə aqressivlik daha kəskin

şəkil alır. Bu səbəbdən də cinayətin edilmə üsulları daha da qəddarlaşır. Baş psixiatr insanlar arasında xos münasibət, qayğıkeşlik, mərhəmət hisslərininn arxa plana keçməsindən təəssüflənir. O, aqressivliyin artmasını sosial problemlərlə əlaqələndirməyi düzgün hesab etmir. "Problemin kökləri dərindir. Hesab edirəm bu problem tərbiyə, yeniyetmələrə az diqqət yetirilməsi ilə bağlıdır. Həmçinin cəmiyyətdə güc amili dəbdədir. Sanki hər kəs problemini güc yolu ilə həll etmək istəyir", - deyə baş psixiatr vurğulayıb. Gəraybəyli son illər ailədaxili münaqişələrin artması ilə bağlı fikirləri də real saymır. Onun fikrincə, bu qəbildən olan cianyətlərin nə əvvəl, nə də indi statistikasının aparılması mümkün deyil. Onun fikrincə, bu problemin aktuallaşmasının səbəbi ailə daxilindəki münasibətlərə işıq salınması, problemin qabardılması ilə bağlıdır. Ona görə də bizə elə gəlir ki, belə cinayətlər artıb. Həkim ailədaxili zorakılığı normal hal kimi qəbul edilməsi ilə bağlı ümumi bir fikirin formalaşmasından təəssüflənir. "Çoxunda belə bir fikir formalaşıb ki, kişi arvadını döyə bilər, qadını döymək lazımdı və s. Bu problemin həlli yolları hüquqi maarifləndirmədi. Ailədə hər kəs oz hüquq və vəzifələrini bilməlidir. Qadın ona verilən işgəncəyə, zorakılığa dözmək məcburiyyətində deyil. Onlar hüquq-mühafizə orqanlarına müraciət etməlidirlər. Belə olmazsa, sonda bu hal həmin ailədə cinayətə, faciəyə gətirib cıxara bilər", - Gəraybəyli bu fikirdədir. Hüquqşünas, ekspert Xanlar Ələkbərov isə məişət zorakılığı, xüsusi amansızlıqla törədilən cinayətlərin artdığını deyir. Onun fikrincə, digər cinayətlərin qarşısını əvvəlcədən almaq mümkün olsa da, məişət zorakılığının qarşısını almaq, ona nəzarət etmək mümkünsüzdür. Ələkbərovun fikrincə, cəmiyyətdəki problemlər, ətrafımızda insanın əsəbinə təsir edən bütün özbaşnalıqlar insanların əsəb sistemini pozur. "Cəmiyyətdə əsəb sistemimizə təsir edən problemlər - marsrutdakı, yollardakı tıxaclar, siqnallar, səs-küy və s. çoxdur. Bunlar da gün ərzində yığılır və adi bir bəhanədən partlayır, sonunda da cinayət baş verir", - ekspert vurğulayıb. Ekspert ailədaxilindəki cinayətlərin əsas səbəbinin fahişəlik, qısqanclıqla bağlı olduğunu bildirir. Ələkbərov deyir ki, son 20 ildə fahişəliyin çəkisi artıb. Bu isə ailələrə təsirsiz ötüşmür.

Azərbaycanın bütün regionlarını əhatə edən 18000 ev təsərrüfatında aparılan sorğu zamanı qadınların 35,8 faizinin zorakılığa məruz qalması müəyyən edilib.

Bu nəticə Statistika Komitəsinin "2008-2012-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın təkmilləşdirilməsinə dair Dövlət Proqramına" na uyğun olaraq həyata keçirdiyi "Şəxs əleyhinə zorakılığa dair" statistik müayinə zamanı bəlli olub. Komitədən verilən məlumata görə, sorğuya cəlb edilənB 23551 qadından 8,1 faizi fiziki zorakılığa, 27,7 faizi isə psixoloji və iqtisadi zorakılığa məruz qaldığını bildirib. Sorğuya cəlb olunanların 17157-si şəhər, 6394-ü isə kənd sakini olub. Zorakılığa məruz qalanların nisbəti kənddə yaşayanlarda 76,9, şəhər qadınları arasında isə 20,4 faiz təşkil edib.

Ailə münaqişəsi, Mülk davası, dəhşətli qətllər....

17.10.2009-cu il Ayna qəzeti

Qətl hadisələrinin çoxu ailədaxili mülkiyyət üstündə baş verir. DİN mətbuat xidmətindən verilən məlumata görə, bu ilin 9 ayı ərzində qəsdən adam öldürmə, ölümə sui-qəsd, qəsdən sağlamlığa ağır zərər və yüngül zərər vurma cinayətləri ötən illərə nisbətən azalıb. Qətl hadisələrinin çoxu ailə-məişət zəminində baş verir. Mülk üstündə baş verən cinayətlər ötən illərlə müqayisədə artıb.

Ailələrdə qətllər
...Bir qadın 5 il ərzində hüquq-mühafizə orqanlarına müracət edərək bildirib ki, əri tərəfindən təhqir olunur, ləyaqəti alçaldılır, əri daim sərxoş olur və onu hər gün döyür. Bu qadın əri tərəfindən döyülməsinə dözsə də, ərinin uşaqlarını döyməsinə dözməyib və onu qətlə yetirib. Bu hadisə məişət zorakılığı zəminində baş vermişdi. Lakin ortada insan faktoru vardı, qadının ləyaqəti alçaldılmışdı. İndi isə onun uşaqlarının ləyaqəti alçaldılırdı.

Bu misalı hüquqşünas İradə Cavadova gətirir. Deyir ki, ailədaxili qətllərə daha çox qısqanclıq və əxlaqsızlıq səbəb olur.

Qətl hadisələri Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə araşdırılır. Onların arasında ən müxtəlif motivlərlə törədilmiş qətl hadisələrinə rast gəlmək olur. Məsələn, hakim Rauf Əliyev bu günlərdə Suraxanı sakini Lalə Əsədovanın məhkəməsini aparırdı. Hadisə mülk üstündə baş verib. Müttəhim qaynatasını evdən didərgin salıb və ailənin ağsaqqalı məhkəmə qapılarına düşməli olub.
Lalə Əsədova (1978) bu il mayın 8-də həyat yoldaşı Vüqar Salmanovu Qaraçuxurdakı evlərində kəmərlə boğmağa cəhd edib. Daha sonra onun qarın nahiyəsinə bıçaqla zərbələr vurub. Yaralı Sabunçu xəstəxanasına aparılıb

Ailələr niyə dağılır?

Ötən il ölkədə nikahlarla boşanmaların sayları arasındakı fərq artıb. Bu isə Azərbaycanda yeni qurulan ailələrin sonradan dağılma təmayülünün hələ də güclü olması, ailə münasibətləri ilə bağlı olaraq Sovetlər Birliyi dağılandan sonra müşahidə edilən böhranın bir qədər səngidiyini göstərir.
Dövlət Statistika Komitəsindən əməkdaşımıza verilən məlumata görə, 2008-ci ildə Azərbaycanda 79900 nikah və 7900 boşanma qeydə alınıb. Beləliklə, ölkə əhalisinin hər min nəfərinə düşən boşanmaların sayında 4%-li azalma var.
İlk dəfə ailə quran vətəndaşların yaşına gəldikdə isə, kişilər 28, qadınlar isə 24 yaşda olublar.
Boşanma hallarının 405-dən çoxu gənc ailələrin payına düşür.
Ali Məhkəmədən verilən məlumatda isə bildirildi ki, boşanma ilə bağlı məhkəmələrə müraciət edən ailələr daha çox əmlak bölgüsü üstündə mübahisə edirlər.
"Bunun səbəbi nikaha girən gənclərin inkişaf etmiş dövlətlərdəki təki, müqavilə bağlamamalarıdır. Gələcəkdə nikaha daxil olan tərəflərə müqavilə bağlamaqla bağlı izahat verilməsi tələb edildiyi üçün, ailə quran gənclər belə bürokratik prosedurdan keçməməyə üstünlük verirlər. Halbuki, nikah müqaviləsi olarsa, sonradan boşanma yaşandıqda tərəflər arasındakı əmlak və mülkiyyət mübahisələrini asanlıqla həll etmək olar", - hüquqşünas Ağayar Qurbanov dedi.
Müstəqil ekspertlər isə Dövlət Statistika Komitəsinin hesablama və nəticələrinin real situasiyanı tam əks etdirmədiyini deyirlər. Onların sözlərinə görə, Azərbaycanda boşanma halları kəskin

səbəbdə artmaqdadır. Bunun başlıca səbəbi isə yetkinlik yaşına çatmamış qızların ərə verilməsi və bu cür nikahların da əksər hallarda boşanma ilə nəticələnməsidir.
Ən başlıcası isə, belə "molla nikah"larının qeydə alınmaması sahibsiz qalan və ya uşaq evlərinə verilən cocuqların sayını artırır.
Qadınlara qarşı zorakılıq və erkən nikah halları ilə bağlı Azərbaycanın bir sıra rayonlarında aparılan dinləmələr ilə müşahidələrin nəticələrinə əsaslanan Məcburi Köçkün Qadınların Milli Şəbəkəsinin yetkilisi Bəsurə Məmmədlinin dediyinə görə, mövcud qanunvericilikdəki boşluq da bəhs olunan problemin həllini çətinləşdirir.
"Məsələn, əgər hər hansı bir din xadimi kəbin vasitəsilə erkən nikah aktını həyata keçirirsə, bunun üçün cinayət və ya mülki məsuliyyət nəzərdə tutulmayıb. Və ya erkən yaşda ərə verilən qızların adları artıq təhsil almadıqları orta məktəblərin davamiyyət jurnallarında qalır", - B.Məmmədli dedi.
BMT-nin Qadın İnkişaf Fondunun (UNİFEM) layihə koordinatoru Gülşən Paşayevanın sözlərinə görə, zorakılıqla bağlı xüsusi qanunvericiliyin hazırlanması bəhs olunan problemlə mübarizəni xeyli asanlaşdıra bilərdi. Eyni zamanda erkən nikahların qarşısının alınması ilə bağlı hüquqi-normativ aktlar da qəbul edilməlidir.
Milli Məclisin sosial siyasət daimi komissiyasının sədr müavini Musa Quliyev isə deyilən fikirlərlə razı deyil: "Ölkə parlamentində "Gender bərabərliyi haqqında" qanun qəbul edilib, Ailə Məcəlləsində nikah yaşı göstərilib, bu qanunları pozanlar üçün konkret məsuliyyət növlərir nəzərdə tutulub. Əminəm ki, deyilən problemlər bağlı xüsusi normatik akta ehtiyac yoxdur".
Azərbaycan qanunvericiliyində isə deyilir ki, din xadimləri tərəfindən bağlanan kəbin, yəni "molla nikahı" heç bir hüquqi qüvvəyə malik deyil və nəticə də doğura bilməz. Yalnız müvafiq dövlət orqanında - Vətəndaşlıq Vəziyyəti Aktlarının Dövlət Qeydiyyatı Orqanında bağlanan nikah hüquqi qüvvəyə malik olur.
Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsindən verilən məlumatda bildirilir ki, ötən ildəki nikahlar arasında nikah müqaviləsi ilə bağlananların sayı həddən azdır: "Məsələn, 2008-ci ilin birinci yarısında 33400 nikah qeydə alınıb ki, onlardan ancaq 13-də nikah müqavilə bağlanıb. Əvvəlki illərlə bağlı statistika isə daha mənfidir. 2007-ci ildə qeydə alınan 81756 nikahdan yalnız 16-da, 2006-cı ildə 79 min nikahdan 33-də, 2005-ci ildə 71619 nikahdan 19-da müqavilə bağlanıb".
Yeni ailə quranlara təqdimat üçün nəzərdə tutmuş nikah müqaviləsi formasında isə bildirilir ki, birgə ailə həyatı dövründə əldə olunan, habelə ailə qurmaq münasibətilə valideynlər və digər şəxslər tərəfindən verilmiş əmlak ərlə arvadın birgə mülkiyyəti hesab olunur.
"Birgə nikah dövründə tərəflərin əmək fəaliyyəti nəticəsində əldə edilmiş gəlir qarşılıqlı razılıq əsasında xərclənir.
Ər-arvaddan hər biri digərinin razılığı olmadan bu əmlak üzərində müstəqil sərəncam verə bilməz. Ymumi birgə mülkiyyətdə olan əmlak nikah dövründə, yaxud nikah pozulandan sonrakı 3 il müddətində ərlə arvadın qarşılıqlı razılığı əsasında bölüşdürülə bilər. Bu zaman uşaqların adına alınmış əmlak bölgüdə nəzərə alınmır", - müqavilə formasında deyilir.
Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsinin baş məsləhətçisi Mehdi Həsənovun dediyinə görə, VVAQ-a nikah üçün ərizə verənlərin hamısına nikah müqaviləsi bağlanmaq təklif olunur.
Vəkillərin dediklərinə görə, boşanmalardan sonra məhkəmələrin icraatında olan mülki iddiaların böyük qismi mənzildən istifadə hüququn xitamı və ya bu hüququn verilməsi (Mülki Məcəllənin 228-ci maddəsi) ilə bağlıdır.
Qadın Krizis Mərkəzinin rəhbəri Mətanət Əzizova hesab edir ki, ölkədə boşanmaların sayı rəsmi statistikadan ən azı 10 dəfə çoxdur.
"Çünki statistika yalnız rəsmi nikahda olanları nəzərə alır. Fəqət, ölkədə "molla nikahı" ilə yaşayanların sayı artır, belə ailələr arasında boşanma ilə bitənlərin statistikası çoxalır. Bizim mərkəzə ötən il bu problemlə bağlı 700-dən artıq qadın müraciət edib", - M.Əzizova söylədi.

Onun dediyinə görə, boşanmaların sayını artıran əsas amillərdən biri ailə-məişət zorakılığı, qadınların zorakılığa məruz qalmasıdır. Belə qadınlar özlərini müdafiə edə bilmədikləri üçün çıxış yolunu ərindən ayrılmaqda, boşanıb ailəni dağıtmaqda görürlər.
Ailə zorakılığı haqqında qanunun olmaması isə problemlərin çözümünü indiki vəziyyətdən çıxarmır.
Ailə, qadın və uşaq problemləri üzrə dövlət komitəsinin sədri Hicran Hüseynovanın dediyinə görə, ölkədə hazırda 1810500 ailə var.
Bu ailələr arasında neçəsi dağılacaq, neçə izdivac boşanma ilə bitəcək - bilinmir

Beynəlxalq Təcrübə

QADINLARA MÜNASİBƏTDƏ ZORAKILIĞA QARŞI “16 GÜN”

Əsas tarixlər
25 noyabr - 10 dekabr

Nə üçün məhz bu 16 gün?
Qadınlara münasibətdə zorakılığa qarşı "16 Gün" kampaniyası 16 gün müddətində, noyabrın 25-dən, qadınlara münasibətdə zorakılığa qarşı Beynəlxalq gündən başlayır və dekabrın 10-da, Beynəlxalq insan hüquqları günündə başa çatır. Bu kampaniya ondan ötrü keçirilir ki, ictimaiyyətin şüurunda qadınlara münasibətdə bütün zorakılıq formalarının ləğv edilməsi insan hüquqlarına əməl olunmasını möhkəmləndirir, qadınlara münasibətdə zorakılıq isə insan hüquqlarını pozur. "16 Gün" kampaniyası öz fəaliyyətində insan hüquqlarına əməl olunmasını ön plana çəkir və qadınlara münasibətdə həm hökumət, həm də qeyri-hökumət orqanları və şəxslər tərəfindən zorakılıq faktlarına görə məsuliyyətin təmin edilməsi üçün keçirilir.

25 noyabr və 10 dekabr tarixlərinin əhəmiyyəti

25 noyabr - Qadınlara münasibətdə zorakılıqla Beynəlxalq mübarizə günü

25 noyabr, 1981-ci il iyulun 18-21-də Boqotada (Kolumbiya) keçirilmiş Latın Amerikası və Karib regionu ölkələrinin birinci feminist "Encuentros"unda "Qadınlara münasibətdə zorakılıqla Beynəlxalq mübarizə günü" elan edilmişdir. "Feminist encuentros" qadın hərəkatlarının fəaliyyətini işıqlandırmaq və təcrübə mübadiləsi üçün Latın Amerikasının müxtəlif ölkələrindən olan feminist təşkilatların nümayəndələri tərəfindən hər 2-3 ildə keçirilən konfranslardır. Birinci "Encuentros" zamanı gender zorakılığının bütün formaları işıqlandırılmışdır: ailə zorakılığından seksual zorakılıq və təqibə qədər, həmçinin hökumət tərəfindən siyasi məhbus olan qadınlara işgəncə və sərt rəftar şəklində zorakılıq. 25 noyabr tarixi "Qadınlara münasibətdə zorakılıqla Beynəlxalq mübarizə günü" tərəfindən Mirabal bacılarının (Patriya, Minerva və Mariya Tereza) öldürülməsi xatirəsinə seçilmişdir. Bu qətl 1960-cı il noyabrın 25-də Dominikan Respublikasında Rafael Truxilyonun rəhbərliyi ilə diktatura tərəfindən törədilmişdir. 1999-cu ildə Birləşmiş Millətlər Təşkilatı 25 noyabrı rəsmi olaraq "Qadınlara münasibətdə zorakılıqla Beynəlxalq mübarizə günü" elan etmişdir.

Mirabal bacıları
Patria, Minerva, Mariya Tereza və Dede Dominikan Respublikasının Sibao rayonunda Salsedo şəhərinin yaxınlığındakı Oco de Akuada doğulmuşlar. "Kəpənəklər", onları adətən belə adlandırırdılar, siyasi aktivist və Truxilyo diktaturasına müqavimətin parlaq simvolu idilər. Bacılar və həmçinin onların ərləri, demokratiya və ədalətin bərqərar olmasına yönəldilmiş inqilabi fəaliyyətə görə dəfələrlə həbsxanaya düşmüşlər. 1960-cı il noyabrın 25-də Mirabal bacılarından üçü (Patria, Minerva, Mariya Tereza) və həmçinin onların sürücüsü Rufino de la Kruz diktator Truxilyonun məxvi polis əməkdaşları tərəfindən qətlə yetirilmişlər. Qadınlar öz

sürücüləri Rufino ilə Puerto Platada həbsxanada olan ərlərinin görüşünə gedirdilər. Boğulmuş üç bacının əzilmiş cəsədləri yarğanın dibində tapılmışdı. Amansız qətl haqda xəbər şok və hiddət yaratmış və Truxilyo diktaturasına qarşı siyasi hərəkatı gücləndirmişdi. 1961-ci il mayın 30-da Truxilyo öldürülmüş və tezliklə onun rejimi süqut etmişdir.
Mirabal bacıları həm ictimai, həm də feminist hərəkatın simvoluna çevrildilər. Baş vermiş faciədən illər keçdikcə, bacıların xatirəsinə şerlər, mahnılar və kitablar yazılmışdır. Dominikan Respublikasının Milli tarix və coğrafiya muzeyində bacıların şəxsi əşyalarından sərgi təşkil olunmuş, xatirə markası buraxılmışdır. Şəxsi fondlardan biri doğma şəhərlərində ailəvi Mirabal muzeyinin təzələnməsi üçün vəsait toplanmasını həyata keçirir. 1997-ci il martın 8-də Santo Dominqoda Truxilyonun öz şərəfinə ucaltdığı 137 futluq sütun şəkilli abidədə dörd bacının əksi olan xatirə lövhəsi açılmışdır. Abidənin üzərində "Un Canto a la Libertad" (Azadlıq nəğməsi) yazılmışdır.
Mirabal bacıları haqda daha müfəssəl məlumatı Culiya Alvarezin 1994-cü ildə çap edilmiş "Kəpənəklər mövsümü" romanında, Bernard Diyederikin "Truxilyo: Diktatorin ölümü" kitabında və həmçinin 1992-ci ildə, ildə dörd dəfə çıxan beynəlxalq "Connexions" qadın jurnalının 39-cu nömrəsində çap edilmiş "Mirabal bacıları" məqaləsində tapa bilərsiniz

Hindistanda qadınları zorakılıqdan qoruyacaq qanun qüvvəyə minmişdir.

Bu qanuna əsasən həyat yoldaşlarına və ya bir evdə yaşadıqları qadına qarşı zorakılıq işlədən kişilər cərimələnərək həbsə atılacaqlar. Hökumətin təxminlərinə görə, hind qadınlarının 70% müxtəlif formada zorakılıqla üzləşir. Cinayətlərə dair milli büronun verdiyi məlumata əsasən, Hindistanda hər altı saatdan bir yeni ailə qurmuş gənc qadın ya yandırılır, ya döyülərək öldürülür, ya da ki, qanunsuz cehiz tələblərinə tab gətirə bilməyərək intihar edir. Hər il on minlərlə qadın müxtəlif formada zorakılıqla üzləşir. İndi yeni qanuna əsasən, xanımlarına, bir evdə yaşadıqları qadınlara və ya qadın qohumlarına qarşı zorakılıq edən kişilər böyük məbləğdə cərimələnmə, eləcə də həbs cəzası ilə üzləşəcəklər. Qanuna əsasən məişət zorakılığı deyərkən, təhqir, fiziki, cinsi, emosional və istisadi zorakılıq nəzərdə tutulur. Hindistanın Qadın və Uşaq məsələləri üzrə naziri Renuka Çodri deyir ki, ölkə boyunca yerli hakim dairələrinə və polis məntəqələrinə ciddi göstəriş verilib.
Qadın təşkilatları bu qanunu salamlayıblar. Amma bəziləri deyir ki, düşüncə tərzi dəyişilmədən məişət zorakılığı ilə mübarizə faydasız olacaq.

ATƏT Türkmənistanda məişət zorakılığının qurbanları üçün "qaynar xətt" açıb

09.09.2009- İnsan Hüquqları XXI əsr Azərbaycan Fondu

Türkmənistanda ATƏT-in təşəbbüsü və dəstəyi ilə məişət zorakılığı məsələləri üzrə "qaynar xətt" rəsmən açılıb. ATƏT mərkəzinin press-relizində deyilir ki, həftənin hər günü, təxminən yarım gün ərzində açıq olan telefona zənglər yerli ictimai təşkilatlardan birinin məsləhətçiləri tərəfindən qəbul ediləcək. Nömrə reklam vərəqələrinin köməyi ilə yayılacaq.
"Qaynar xətt" məişət zorakılığının qurbanlarına kömək göstərəck, eləcə də məişət zorakılığı ilə mübarizə və onun qarşısının alınmasının zəruriliyi barədə məlumatlılığın artırılmasına kömək edəcək", - ATƏT-in Aşqabad mərkəzinin rəhbəri, səfir Arsim Zekolinin bəyanatında qeyd edilir. ATƏT-in dəstəyi ilə yerinə yetirilən bu layihə çərçivəsində hüquqi məsələlər üzrə pulsuz məsləhətlər keçiriləcək və məişət zorakılığı qurbanlarına psixoloji kömək göstəriləcək. Planda həmçinin ictimaiyyətin məişət zorakılığı barədə məlumatlılığının artırılması məqsədilə seminarlar keçirilməsi də nəzərdə tutulub.